***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PEDAGOGICAL PROBLEMS***

*UOT 371*

***Rəhimə Mahmud qızı Mahmudova***
*Bakı Dövlət Universitetinin*
*pedaqogika kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

## TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ MOTİVLƏRİN ROLU

***Рахима Махмуд гызы Махмудова***
*доцент кафедры педагогики*
*Бакинского Государственного Университета,*
*доктор философии по педагогике*

## РОЛЬ МОТИВОВ В УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

***Rahima Mahmud Mahmudova***
*associate professor of the department of pedagogy at Baku State University,*
*doctor of philosophy in pedagogy*

## THE ROLE OF MOTIVES IN THE LEARNING ACTIVITY OF STUDENTS

**Xülasə.** Son dövrlərdə tələbələrin təlim fəaliyyətinin yaxşılaşdırılması yollarının müəyyən edilməsi istiqamətində müxtəlif tədqiqatlar aparılır. Bu tədqiqatlarda motivlərin formalaşdırılması və inkişaf etdirilməsi tələbələrin təlim fəaliyyətinin yaxşılaşdırılması yolu kimi dəyərləndirir. Məqalədə müəllif müxtəlif alimlərin və özünün həyata keçirdiyi tədqiqatlara əsaslanaraq, ali məktəb tələbələrinin təlim fəaliyyətinin yüksək olmamasının səbəblərini onlarda idrak və peşə motivlərinin lazımi səviyyədə olmaması ilə əlaqələndirir. Bu məsələni müxtəlif rakurslardan təhlil edən müəllif məqalədə motivlərin formalaşdırılması və inkişaf etdirilməsinin yollarını açıqlayır.
***Açar sözlər:*** *tələbə, təlim fəaliyyəti, peşə motivləri, şəxsi prestij motivləri, praqmatik motivlər, idrakı motivlər.*

**Резюме.** В последнее время проводятся различные исследования с целью определения путей совершенствования учебной деятельности учащихся. В этих исследованиях формирование и развитие мотивов оценивается как способ совершенствования учебной деятельности студентов. В статье автор на основе исследований, проведенных различными учеными и им самим, связывает причины отсутствия высокой учебной активности студентов высшей школы с отсутствием у них познавательной мотивации. Анализируя данный вопрос с разных позиций, автор в статье объясняет пути формирования и развития мотивов.
***Ключевые слова:*** *студент, учебная деятельность, профессиональные мотивы, личностно-престижные мотивы, прагматические мотивы, познавательные мотивы.*

**Summary.** In recent times, various studies have been conducted in order to determine ways to improve the learning activities of students. In these studies, the formation and development of motives is evaluated as a way to improve the learning activity of students. In the article, the author, based on the research conducted by various scientists and himself, connects the reasons for the lack of high educational activity of higher school students with the lack of cognitive motivation in them. Analyzing this issue from different perspectives, the author explains the ways of forming and developing motives in the article.
***Keywords:*** *student, learning activity, professional motives, personal prestige motives, pragmatic motives, cognitive motives.*

İnsanın fəaliyyətə daxil olması motivasiya ilə bilavasitə əlaqəlidir. Motivasiya insanı fəaliyyətə təhrik edir. Bu müddəanı ali məktəbə qəbul olan tələbələrə tətbiq etdikdə, belə qənaətə gələ bilərik ki, onlar təhsillərini motivasiya əsasında davam etdirirlər. Belə bir fikrin formalaşması təsadüfi deyil. Müəllimlər, onlarla keçirdiyimiz sorğularda bu fikri belə əsaslandırırlar: - "əgər tələbə ali məktəbdə təhsil almaq istəyirsə, təbii ki, bu onun elmə, təhsilə, ixtisasa, öz gələcək karyerasına olan motivasiyası ilə bağlıdır". Onlar öz fikirlərində yanılmırlar. Ali məktəbdə təhsil almaq icbari deyil. Orta məktəb mə-zunlarının heç də hamısı ali təhsil ala bilmirlər, qəbul imtahanlarında ən yaxşı nəticələr göstərən məzunlar universitetə qəbul olunurlar. Məsələnin belə qoyuluşu ali məktəbə qəbul olan tələbələrin idrak motivlərinin üstün olduğunu deməyə əsas verir. Təbii ki, bu motiv əsasında o qabiliyyətinə uyğun ixtisas üzrə təhsilini davam etdirməlidir. Ali məktəblərdə apardığımız tədqiqatlar isə bu fikri təsdiq etmir, tələbələrin heç də hamısı təhsillərini idrak motivlərinə əsasən davam etdirmirlər. Əlbəttə, tələbələrin neçə faizinin idrak motivlərinə malik olduğunu müəyyən etmək çətindir. Belə ki, bütün ali məktəblərdə bu nəticələr həm ixtisaslar, həm də qruplar baxımından fərqli olur. Hətta tədris ili baxımından da bu nəticələr dəyişkən xarakter daşıyır. Hər halda müxtəlif illərdə fərqli ixtisaslarda apardığımız tədqiqatlarda tələbələrdə bu göstərici ən yaxşı halda 45%-i keçmir. Təbii ki, bu amil daha yüksək səviyyəli kadr hazırlığı kontekstində qənaətbəxş sayıla bilməz.

Görəsən tələbələrin idrak motivlərinin aşağı olmasının səbəbi nədir? Bu sual hər bir təhsil mütəxəssisini düşündürməlidir. Burada günahkar axtarmaq deyil, mövcud vəziyyəti daha da yaxşılaşdırmaq üçün səbəblərin araşdırılıb, tapılması zəruri pedaqoji problem kimi aktualdır.

Bu məsələ haqqında danışılanda, ilk növbədə, idrak motivlərinin aşağı olmasının səbəblərini valideynlər və orta məktəb müəllimləri ilə əlaqələndirirlər. Həqiqət naminə qeyd edək ki, şagirdlərdə idrak motivlərinin formalaşmasında valideyn-müəllim əməkdaşlığının rolu böyükdür. Apardığımız müşahidələr əsasən deyə bilərik ki, günümüzdə ibtidai siniflərdə valideyn-müəllim əməkdaşlığını qənaətbəxş səviyyədə həyata keçirilir. Yuxarı siniflərə keçdikcə, bu əməkdaşlıq tədricən zəifləyir. Bu bütün dövrlərdə belə olmuşdur. Bunun çoxlu səbəbləri var. Lakin, bu gün müəllim-valideyn əməkdaşlığına ehtiyacın daha da artdığı bir dövrdə bu əlaqələrin zəif olması pedaqoji narahatlıq doğurmaya bilməz. Hətta valideynlərin şagirdin təlim müvəffəqiyyəti ilə maraqlanmadığı faktlara da təsadüf edilir. Valideynlərin əksəriyyəti övladını məktəbin yuxarı siniflərində repetitor yanına göndərməklə öz pedaqoji vəzifələrini yerinə yetirmiş hesab edirlər.

Müəllimlər də bir sıra hallarda valideynləri məktəbə cəlb etməkdə maraqlı görünmürlər. Bu amil də bir sıra nöqsanlara yol açır. Müəllim-valideyn əməkdaşlığının zəif olduğu şəraitdə şagirdin peşəyonümü məsələsində valideynlər hegemon rola malik olurlar. Şagirdin maraq və qabiliyyətlərini müəllimlər daha yaxşı bildikləri halda, onlar peşəyönümünün işindən təcrid olunurlar. Valideynlər isə övladlarını daha çox öz düşüncələri əsasında prestijli saydıqları ixtisaslara yönəldirlər. Bu, əlbəttə kobud səhvdir. Həmin ixtisasla bağlı idrak motivlərinin, maraq və qabiliyyətlərin olmaması tələbənin gələcək təlim fəaliyyətində öz neqativ rolunu oynayır.

İxtisasın necə seçildiyini müəyyən etmək üçün keçirdiyimiz müsahibədə iştirak edən tələbələrin 63%-i ixtisasının valideyni tərəfində seçildiyini bildirmişdir. Valideynlərin övladlarının həyatı ilə çox maraqlanmasını və uşağın həyatına nüfuz etməsini xalqımızın ən böyük mədəni irsi kimi dəyərləndirmək lazımdır. Lakin, müasir dövrdə, sürətlə dəyişən dünyamızda valideynlər cəmiyyətin inkişafını düzgün dəyərləndirə bilməyəndə, bu böyük nöqsanlara yol açır. Fikrimizcə, belə nöqsanlardan biri də uşağının peşəyönümü məsələsində özünü göstərir. Qabiliyyəti olmadığı ixtisasa istiqamətlənmə onların övladlarının gələcək həyatında, karyerasında öz əksini tapır, o dövrün tələblərinə cavab verə bilməyən mütəxəssisə çevrilir.

S.İ. Bobroviçkaya Rusiyada apardığı tədqiqatda da bizim nəticəyə uyğun nəticələr əldə olunmuşdur (1,27-32). O bunu bazar iqtisadiyyatına keçidlə əlaqələndirir. Onun fikrincə, keçid dövründə cəmiyyət səviyyəsində dəyərlərin dəyişməsi gənclərin motivlərinə ciddi təsir göstərmişdi. Müəllifin apardığı sorğularda (sorğular pedaqoji ali məktəblərdə həyata keçirilmişdi)

respondentlərin yalnız 43%-inin seçdiyi ixtisasa uyğun peşə əldə etmək motivlərinə malik olduğu müəyyən edilmişdi. Amma tədqiqatçı eyni zamanda aydınlaşdırmışdı ki, sorğuda iştirak edənlərin yalnız yarısı uşaqlarla ünsiyyəti xoşladığını bildirmişdilər. Bu məsələ bir qədər qeyri-müəyyən görünür. Axı uşaqla ünsiyyəti xoşlamayan insanlar necə pedaqoji fəaliyyət göstərə bilərlər? Sorğuda bu respondentlər ali pedaqoji məktəbə qəbul olunma səbəblərini belə açıqlamışlar ki, onlar pedaqoji fənləri xoşladıqları və ya intellektual səviyyələrini artırmaq istəklərinə malik olduqları üçün bu təhsil müəssisəsinə qəbul olmuşlar. Təbii ki, ali təhsil insanın intellektual səviyyəsini artırır, amma müəllim olmaq motivləri olmadan pedaqoji ali məktəbə qəbul olmaq nə qədər məqsədəuyğundur?

Müəllifin sorğularında bu tələbələr (onlar 57% təşkil etmişlər) ali məktəbə qəbul olarkən qarşılarına məqsəd qoymadıqlarını və gələcəkdə ixtisas üzrə işləmək istəmədiklərini etiraf etmişdilər. Onların ali məktəbə qəbul olma motivləri kimi, müəllif "hərbiyə getmək istəməmək" (bu təbii ki, oğlanlara aiddir), "yaşıdları ilə ünsiyyət", "özünü təsdiqetmə", "ali təhsil diplomunun prestiji" və s. olduğunu aydınlaşdırmışdı. Ali məktəbə qəbul zamanı belə motivasiyaya üstünlüyün verilməsi əslində təkcə ali təhsilin və ya bütünlükdə təhsil sisteminin deyil, cəmiyyətin təhsilə münasibətinin təcəssümüdür. Görünür hələ də bilik və səriştənin deyil, təhsil sənədinin "gücünə" inananlar çoxdur. Yuxarıda qeyd edilən faktlar gənclərin məhz bilik, təhsil almaq həvəsinin deyil, ali təhsil haqqında sənədin əldə olunmasına istiqamətlənən fəaliyyətinin göstəricisidir. Belə motivasiyaya malik olan gənclər yəqin ki, bütün dövrlərdə olmuşdur. Amma onların sayının artması cəmiyyətin inkişafı baxımından narahatlıq doğurur. S.İ. Bobroviçkaya bu meyli "dəyərlərin dəyişməsi" kimi dəyərləndirir. Bu səbəblə razılaşmaq olar, amma onu yeganə səbəb kimi qiymətləndirmək kobud səhv olardı. Fikrimizcə, bu səbəblə yanaşı, orta məktəbdə şagirdlərin peşə yönümü işinin zəif aparılması, ailənin bu istiqamətdə məktəblə nəinki əlaqə saxlamaması, hətta bir sıra hallarda məktəbin məsləhətlərinə diqqət etməməsini də qeyd etmək lazımdır. Hər bir gənc həm məktəbin, həm də ailənin "məhsulu"dur. Bu "məhsul"un həm məzmun baxımdan daha keyfiyyətli olması, həm də məsuliyyət baxımından düzgün bölüşdürülməsi məktəb ilə ailənin qarşılıqlı əməkdaşlığını tələb edir.

Hər bir şagird fərdi – psixoloji keyfiyyətlərindən asılı olaraq müxtəlif səviyyədə bilik və səriştələr əldə edə bilər. Amma təhsil müəssisəsi təkcə təhsil və tərbiyə, sosiallaşma ocağı deyil, həm də təhsilalanın həyat yolunu işıqlandıran məkandır. Məsələni bu müstəvidə qiymətləndirəndə, şagirdlərin peşəyə münasibətinin və qabiliyyətinə uyğun peşəyə motivasiyasının yaradılması ali məktəbin əsas pedaqoji işlərindən birinə çevrilir.

Pedaqoji ədəbiyyatda tələbələrin təlim motivlərinin təsnifatının tədqiqinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə bizim tədqiqat baxımından maraq doğuran A.N. Peçnikov və Q.A. Muxinanın (2,23-68) təsnifatına diqqət edək. Onlar tələbələrin təlim motivlərinin dörd qrupunu ayırd edirlər: peşə motivləri, şəxsi prestij motivləri, praqmatik (ali təhsil diplomu almaq) motivlər və idrakı motivlər.

A.N. Peçnikov və Q.A. Muxinanın qeyd etdiyi peşə və idraki motivlərindən başqa, istər praqmatik (ali təhsil diplomu almaq), istərsə də şəxsi prestij motivləri gənclərin peşə istiqamətinin düzgün müəyyən edilmədiyinin nəticəsi kimi dəyərləndirilə bilər. Şəxsi prestij və praqmatik (ali təhsil diplomu almaq) motivləri ola bilər ki, gənclərin cəmiyyətdə müəyyən vəzifə əldə etməsi üçün əhəmiyyət kəsb etsin, amma müasir dövrdə bu məsələ də şübhəli görünür. Belə ki, bu gün istər dövlət qulluğu ilə, istər başqa dövlət işləri ilə, istərsə də hər hansı bir özəl təşkilatla (şirkət, firma, ali təhsil müəssisəsi) bağlı olsun, işəgötürənlər tərəfindən müəyyən meyarlar edilib ki, onlara cavab verməyənlər işə götürülmürlər. Bununla yanaşı, əksər təşkilatlarda keçirilən müsabiqələrin nəticələrinin nə dərəcədə düz olduğunu dəqiqləşdirmək üçün, yeni qəbul edilən işçilərin bilik və səriştələrinin adekvat olduğunu müəyyən etmək üçün sınaq müddəti müəyyən edilir, bu müddət ərzində işçi özünü doğrultmayanda onunla müqavilə bağlanmır. Göründüyü kimi, son dövrlərdə işçinin qabiliyyətləri və ali təhsil zamanı əldə etdiyi bilik və səriştələr onun karyera qazanmasında böyük rol oynayır. Amma şəxsi prestij və praqmatik (ali təhsil diplomu almaq) motivlərə malik olan tələbələrin gələcək taleyi bu baxımdan narahatlıq doğurur.

F. Rüstəmov və T. Dadaşova tələbələrdə "diplom almaq", "peşəyə yiyələnmək", "elmi-tədqiqatla məşğul olmaq", "tələbəlik həyatı yaşamaq", "gələcək maddi təminat", "xarici dillərə yiyələnmək", "mədəni insan olmaq", "xaricdə işləmək", "sahibkarlıq sahəsində bilgilər və təcrübə qazanmaq", "dostlar tanışlar arasında nüfuz qazanmaq", "ailə ənənəsini davam etdirmək" kimi motivlərin olduğunu müəyyən etmişlər (3,420). Bu motivlər A.N. Peçnikov və Q.A. Muxinanın təsnifatında qeyd olunan motivlərə yaxın olsa da, müəyyən fərqləri də özündə ehtiva edir. Bu tədqiqatlarda bir məsələ özünü açıq-aydın göstərir:-tələbələr ali təhsil müəssisəsinə heç də bütün hallarda peşə və ya idrak motivləri ilə daxil olmurlar. Bu amil pedaqoji prosesdə özünəməxsus çətinliklərin yaranmasını şərtləndirir.

Burada bir məsələ də pedaqoji maraq kəsb edir. Gənc üçün şəxsi prestij motivi hansı məzmun kəsb edir? A.N. Peçnikov və Q.A. Muxina təəssüf ki, bu məsələyə nəzər yetirməmişlər. Şəxsi prestij motivləri ola bilsin ki, idrak motivləri ilə çulğalaşaraq, tələbənin seçdiyi peşəsini dərindən öyrənməyə, intellektini inkişaf etdirməyə sövq etsin. Belə olduqda, onun təlim fəaliyyəti yüksələ bilir. Əlbəttə bu məsələləri dəqiqliklə öyrənmək zəruridir. Biz öz tədqiqatımız prosesində belə tələbələrə az təsadüf etmədik. Tələbə əgər gələcəkdə böyük karyera qazanmaq istəyirsə, o yüksək təlim fəaliyyəti ilə fərqlənir, verilən tapşırıqları daha yüksək səviyyədə yerinə yetirməyə çalışır. Lakin bu motivə malik elə tələbələr də təsadüf edilir ki, onların təlim fəaliyyəti yalnız müvəffəq qiymət almağa istiqamətlənmişdi. Onlar daha yüksək ideallarla yaşayır, "gələcəkdə bu peşə ilə məşğul olmayacağam" fikri ilə özlərinə haqq qazandırır, əldə etməli olduqları bilik və səriştələrin onlar üçün əhəmiyyətini dərk etmirdilər. Bu istiqamətdən təhlil edəndə şəxsi prestij motivlərinə malik olan gənclər arasında həm təhsilin onun gələcək karyerasında rolunu görən, həm də görməyən tələbələrin olduğunun şahidi oluruq. Bu tələbələrin təlim fəaliyyətini ayrı-ayrı qiymətləndirmək lazımdır.

A.N. Peçnikov və Q.A. Muxina öz tədqiqatlarında bizim üçün maraq kəsb edən bir məsələyə də diqqət yetirmişlər. Onlar hansı kursda hansı motivin aparıcı olmasını öyrənmişlər. Əldə edilən nəticələrə əsasən müəyyən edilmişdir ki, birinci kursda aparıcı yeri peşə motivləri, ikinci kursda şəxsi prestij motivləri, üç və dördüncü kurslarda bu motivlərin hər ikisi, dördüncü kursda isə əlavə olaraq praqmatik motivlərin üstünlük kəsb edir (2, s. 23-68).

İnsanın fəaliyyəti dinamik olduğu üçün onun motivlərinin dəyişməsini qanunauyğun hal kimi qiymətləndirə bilərik. Lakin A.N. Peçnikov və Q.A. Muxinanın tədqiqatında aşağı kursdan yuxarı kursa doğru motivlərin mənfi istiqamətdə "inkişafı" təəssüf hissi yaradır. Əgər aşağı kurslarda peşə motivləri üstünlük təşkil edirdisə və yuxarı kurslarda bu motivlərin mütləq çəkisi onların təlim fəaliyyətində aşağı düşürsə, bunu nə ilə əlaqələndirə bilərik? Ali məktəb illərində tələbənin peşə və idrak motivlərinin inkişafı önəmli olduğu halda, onlar nə üçün sonrakı illərdə azalır? Bəlkə də bunun əsas səbəbini ali təhsil müddətində tələbələrə daha çox bilik və səriştələr verilməsi, onların peşə və idrak motivlərinin inkişafına diqqət yetirilməməsində axtarmaq lazımdır. Fikrimizcə, ali məktəbin öz reytinqini artırması üçün tələbələrdə peşə və idraki maraqların formalaşdırılması müəllimlərin fəaliyyətinin ana xəttini təşkil etməlidir.

Motivlərin müxtəlif kurslarda fərqli məzmun daşıması başqa tədqiqatların nəticələrində də öz əksini tapmışdır. Məsələn, M.V. Vovçik-Blakitnaya (4, s. 23-25) müəyyən etmişdir ki, birinci kurs tələbələrində motivlər iyerarxiyasında birinci yeri prestij, ikinci yeri idrakı maraq, üçüncü yeri praktik–peşə motivləri tutur. Müəllifin bu məsələnin səbəbini izah etməsi də maraqlıdır. O I kursu keçid dövrü – abituriyentlikdən tələbəliyə keçid dövrü kimi mənalandırmış və öz fikrini belə sübut etməyə çalışır ki, prestij motivinin birinci yerdə olması tələbələrin özlərini məktəb illəri və abituriyentlik dövrü ilə müqayisədə daha üstün sayması ilə əlaqəlidir. Bu fikir ilə tam razılaşmaq çətindir. Bunu müxtəlif səbəblərlə əlaqələndirmək olar. Məsələn, düşünmək olar ki, belə nəticənin əldə olunması ali məktəbə qəbul olarkən tələbələrin bilik və təcrübələrinin yetərli olmaması, öz imkanlarını real qiymətləndirməməsi, daha yüksək ideallarla yaşaması və s. ilə əlaqədardır. Lakin, fikrimizcə, bunları da ciddi arqument kimi dəyərləndirmək çətindir. Belə ki, tələbələr ali məktəbə qəbul olmazdan əvvəl onlarla peşə yönümü istiqamətdə düzgün iş aparılsaydı, tələbələrdə idrak və peşə motivlərinin olmasını müşahidə edə bilərdik. Bu

istiqamətdə F.M. Raxmatullinanın tədqiqatlarında daha məqsədəmüvafiq nəticələr əldə edilmişdi. Onun tədqiqatlarının nəticələrinə əsasən bütün kurslarda əhəmiyyətinə görə birinci yerdə peşə motivləri olmuşdur. Amma digər motivlər kursdan-kursa keçdikcə öz mövqelərini dəyişmişdir. Məsələn, I kursda peşə motivlərindən sonra ikinci yerdə idrakı motivlər olmuşdur, amma yuxarı kurslarda ümumi sosial motivlər ikinci yerə qalxmış, idraki motivlər isə üçüncü mövqeyə enmişdir. Utilitar (praqmatik) motivlər isə bütün kurslarda dördüncü yerdə olmuşdur (5,90-104). Müəllif kursdan kursa keçdikcə, peşə və ümumsosial motivlərin reytinqinin artmasını, utilitar (praqmatik) motivlərin isə reytinqinin azalmasını ali məktəb müəllimlərinin pedaqoji fəaliyyəti ilə əlaqələndirir.

Təbii ki, abituriyentlərin ali məktəbə qəbul olarkən hamısının peşə və ya idrakı motivlərə malik olmasını gözləmək mümkün deyil. Lakin təhsil aldığı illərdə tələbələrdə idrak, peşə və sosial motivlərinin formalaşması və inkişaf etdirilməsi ali məktəbin əsas vəzifələrindən biri olmalıdır. Belə olduqda tələbələrin təlim müvəffəqiyyəti yüksəlir. Bu F.M. Raxmatullinanın tədqiqatlarında öz əksini tapmışdır. Onun tədqiqatlarında tələbələrdə peşə, idraki və ümumsosial motivlərə malik olan tələbələrin təlim müvəffəqiyyəti daha yüksək olmuşdur. Utilitar (praqmatik) motivlərə isə daha çox təlim müvəffəqiyyəti aşağı olan tələbələr arasında təsadüf edilmişdi. Müəllifin bu müqayisəli təhlili maraq kəsb edir, motivlərin tələbənin təlim fəaliyyətinin yaxşılaşdırmasının yollarından biri olduğunu təsdiq edir və ali məktəb müəllimlərinin tələbələrdə motivlərin formalaşdırmasına daha da diqqətlə yanaşmasını tələb edir (5, s. 90-104).

Mühüm pedaqoji əhəmiyyət kəsb edən bir məsələyə də diqqəti cəlb etmək istərdik. A.A. Rean apardığı tədqiqatlarda müəyyən etmişdir ki, təlimə pozitiv motivlərin olması hətta həmin ixtisas istiqamətində tələbənin yüksək qabiliyyəti olmadığı halda kompensasiyaedici funksiya daşıyır. Belə hallarda tələbənin təlim müvəffəqiyyəti nisbətən yüksək olur. Daha dəqiq ifadə etsək, peşə, idrak və sosial motivlərinin tələbələrin təlim fəaliyyətinə təsiri pozitiv xarakter daşıyır, onun təlim fəaliyyətinin məhsuldar olmasını şərtləndirir. Təbiidir ki, tələbə təlim fəaliyyətinə nə qədər həvəslə yanaşarsa, o daha çox bilik və səriştələr əldə edir, bunun nəticəsində nəzərəçarpacaq müvəffəqiyyət əldə edir. Əksinə, tələbənin utilitar (praqmatik) motivlərə malik olması onun hətta həmin ixtisas üzrə yüksək qabiliyyətə malik olduğu halda belə yüksək nəticələr əldə etməsinə imkan vermir. Motivlərlə tələbənin əldə etdiyi nəticələr arasında korrelyasiyaya diqqət yetirən A.A. Rean motivlərin tələbənin təlim fəaliyyətində gücünü və əhəmiyyətini tam aydın şəkildə müəyyənləşdirə bilmişdi (6, s. 61-70).

Həyatda insanların motivsiz heç bir fəaliyyəti yoxdur. Sadəcə olaraq bütün insanlar hər hansı bir işi görəndə, hətta eyni bir işi yerinə yetirəndə belə müxtəlif motivlərə əsaslanırlar. Motivlər ətraf mühitin təsiri altında formalaşır, dəyişir, yenilənir. Bunun nəticəsində pozitiv motiv neqativlə, neqativ motiv pozitivlə əvəz oluna bilir. Bu insanın fəaliyyət göstərdiyi mühitlə birbaşa əlaqəlidir. İstər şagird, istərsə də tələbə təhsil müddətində təlim üçün müsbət mühitə malik olur. Yəni təhsil müddətdə şagird və tələbələrin fəaliyyəti onlarda təlim üçün pozitiv motivlərin formalaşması və inkişafına şərait yaratmalıdır. Lakin qeyd olunan tədqiqatların nəticələrindən göründüyü kimi tələbələr kursdan-kursa keçdikcə onların motivlərində müəyyən dəyişikliklər yaranır. Bizim tədqiqatlarda da bu tendensiya müşahidə olunmuşdu. Başqa sözlə desək, ali məktəblərdə həyata keçirdiyimiz tədqiqatlarda I kursda pozitiv təlim motivlərinə malik olan tələbənin yuxarı kurslarda motivlərinin neqativ xarakter daşıması və əksinə, neqativ təlim motivlərinin pozitiv motivlərlə əvəz olunması faktlarına təsadüf edildi. Bunun səbəblərini müəyyən etmək üçün biz yuxarı kurs tələbələri ilə müəyyənedici eksperiment həyata keçirdik. Eksperimentə 160 nəfər tələbə cəlb edilmişdi. Tələbələrdən 74 nəfəri neqativ motivlərə, 86 nəfəri isə pozitiv motivlərə malik idi.

74 nəfər neqativ motivə malik olan tələbənin 32-si ali məktəbə qəbul olarkən təlim fəaliyyəti üçün pozitiv xarakter daşıyan motivə, 42 nəfəri isə neqativ motivə malik olmuşlar. 32 nəfər tələbənin motivləri təhsil aldıqları illər ərzində pozitiv motivdən neqativ motivə çevrilmişdir. Ali məktəbə qəbul olarkən onlardan 14 nəfər idrakı motivə, 12 nəfər peşə motivinə, 6 nəfər isə gələcəkdə yüksək karyera qazanmaq motivinə malik olmuşlar. Lakin onlar dördüncü kursda təhsil alarkən diplom almaq üçün təhsil

aldıqlarını etiraf edirdilər. Eksperiment zamanı tələbələr bunun səbəblərini aşağıdakı kimi açıqlamışdılar (biz daha çox təsadüf edilən səbəbləri göstərməyə üstünlük vermişik).

1. Tələbələrin 42%-i təhsil aldığı ixtisasın onun maraq və qabiliyyətinə uyğun olmadığını bildirmişlər;

2. 33% tələbə, xüsusən I və II kurslarda müəllimlərin onlarla münasibətindən və tədris metodlardan narazı olduqlarını qeyd etmişdilər;

3. Tələbələrin 18%-i xüsusən aşağı kurslarda onların peşə maraqlarına uyğun olmayan fənlərin tədris olunmasını və bu fənlərin onlarda pozitiv motivləri zəiflətdiyini ifadə etmişdilər (7% tələbə müxtəlif səbəblər göstərmişlər).

Biz tələbələrin təhsil müddətində qarşılaşdığı problemlərlə razılaşırıq. Lakin fikrimizcə, bu səbəblərin yaranmasının daxili hərəkətverici qüvvəsi müəllimdir. O auditoriyada öhdəsinə düşən vəzifələri düzgün həll etdikdə, tələbələrdə motivlərin inkişafı üçün zəruri mühit yaratdıqda, hətta ali məktəbə qəbul olarkən neqativ motivlərə malik olan tələbələrdə pozitiv motivlərin inkişafına təkan verə bilir. Bu fikri pozitiv motivlərə malik olan tələbələrlə apardığımız tədqiqatın nəticələri də təsdiq edir. Onlara diqqət edək:

Müsahibədə iştirak edən 86 nəfər pozitiv motivasiyaya malik olan tələbədən 47 nəfəri ali məktəbə qəbul olarkən, neqativ motivlərlə (diplom almaq üçün) qəbul olmuşdular. Lakin ali məktəbdə təhsil alarkən onların təlim motivləri pozitiv motivlərlə əvəz olunmuşdur. Onlar bunun səbəblərini belə izah etmişdilər:

1. Ali məktəbdə təhsil almaq daha maraqlıdır. Burada müəllimlər müxtəlif metodlar vasitəsi ilə tələbələri yaradıcı fəaliyyətə cəlb edirlər. Məşğələlərdə dialoqdan, müzakirədən istifadə olunur.

2. Burada tədris olunan fənlər dünyanı, həyatı dərk etməyə imkan yaradır. Onların sayəsində mən başa düşmüşəm ki, yaxşı mütəxəssis olub, cəmiyyətə xeyir verə və daha çox nüfuz əldə edə bilərəm;

3. Ali məktəbdə mən başa düşdüm ki, əldə etdiyim bilik və səriştələr mənim böyük karyera əldə etməyimə yol açır.

Biz ali məktəbə qəbul olarkən təlim motivləri müxtəlif olan, ali məktəbə qəbul olduqdan sonra pozitiv motivləri neqativ motivlə əvəz olunan və neqativ motivləri pozitiv motivlərlə əvəz olunmuş iki tələbə qrupunun verdiyi cavabları müqayisəli təhlil etdikdə aydın olur ki, tələbələrdə motivlərin formalaşmasında müəllimin rolu nəhayətsizdir. Bu istiqamətdə aparılan tədqiqatlar da bu və ya digər dərəcədə bu fikri təsdiq edir. A.İ. Gebos motivlərin yaranmasına kömək edən amilləri aşağıdakı kimi qruplaşdırır:

-Təlimin başlanğıc və son məqsədlərini dərk etmək;

-Mənimsənilən biliklərin praktik və nəzəri əhəmiyyətini dərk etmək;

-Təlim materialının emosional formada ifadəsi;

-Elmi anlayışların inkişafında "perspektiv xətlərin" göstərilməsi;

-Təlim fəaliyyətinin peşəyə istiqamətlənməsi;

-Təlim fəaliyyətinin strukturunda problem situasiyaların yaranmasına xidmət edən tapşırıqların seçilməsi;

-Təlim qrupunda hər şeyi öyrənməyə maraq göstərmə və "idrakı psixoloji mühitin" olması (7, s. 14-20).

A.İ. Gebosin təklif etdiyi amillərin hamısı təlim prosesi ilə, daha dəqiq desək, fənn müəllimlərinin təlim vəzifələrinin icrası ilə əlaqəlidir. Hər bir müəllim tədris etdiyi fənnin məqsədini aydınlaşdırmalı, onların öyrəndikləri biliklərin nəzəri və praktik əhəmiyyətini dərk etməsinə çalışmalı, fənnin öyrənilməsi baxımından "perspektiv xətləri" tələbələrə göstərməli, tələbələrin yiyələndiyi peşə kontekstində fənnin əhəmiyyətini başa salmalı, müxtəlif tapşırıqlar vasitəsi ilə onların müstəqil təlim fəaliyyətini təşkil etməli, onların maraq dairəsinin genişlənməsinə, bu müstəvidə "idrakı psixoloji mühit" yaratmağa çalışmalıdır. F. Rüstəmov və T. Daşovanın fikrincə, ali məktəbdə tələbələrin təlim fəaliyyətinin səmərəsini yüksəltmək üçün tələbəyə "seçilmiş peşənin məzmun və strukturunu aşkarlamaq, onu professoqramını tələbəyə başa salmaq", "peşə ixtisası ilə bağlı bilik, bacarıq və aşılamaqla kifayətlənməməli, həm də onda müvafiq peşə qabiliyyətləri inkişaf etdirilməlidir" (3,421). Ali təhsildə müəllimin belə fəaliyyəti tələbələrə seçdikləri ixtisasa daha dərindən yiyələnmələri üçün motivlərin yaranmasında böyük rol oynayır.

Məsələyə daha dərindən yanaşdıqda, ali təhsil sistemində motivlərin yaranması deyil, inkişaf etdirilməsi aktual olmalıdır. Lakin mo-

tivlərin orta məktəbdə formalaşmaması ali məktəb müəllimlərini belə reallıqla üz-üzə qoyur. A.A. Reanın gəldiyi qənaətə görə deyə bilərik ki, istər orta məktəbdə, istərsə də ali məktəbdə təlim müvəffəqiyyətinin səviyyəsi təhsil alanların motivləri ilə düz mütənasibdir (6, s. 61-70).

V.A. Solonitsın və Q.A. Şabanov da bu fikri dəstəkləyirlər. Onların fikrincə, müəllimlərin istər ixtisas, istərsə də qeyri ixtisas fənlərinin tədrisini tələbələrin ixtisası və sosial həyatı ilə əlaqələndirməsini, yəni tədris olunan mövzuların onun üçün hansı əhəmiyyət kəsb etməsinə diqqət yetirməyi zəruri hesab edirlər (8,57-59). Tələbələrdə motivlərin formalaşmasına xüsusi önəm verən N. Kazımov qeyd edir ki, "hər hansı bir fənnə maraq göstərməyən şəxslərə həmin fənnin həyatda, sosial-iqtisadi, yaxud mədəni-siyasi sahədə əhəmiyyətini konkret faktlarla açmaq onlarda yeni motivlərə çevrilə bilər" (9,167). Müəlliflərin fikri ilə tam razıyıq. Tələbə verilən biliklərin onun gələcək həyatında nə kimi rol oynayacağını dərk etdikdə onda həmin fənni öyrənməyə motivasiya formalaşır. Məsələn, psixologiya fənnini öyrənmək tələbənin nəyinə lazımdır? Bir çox hallarda qeyri-ixtisas fənlərinin öyrənilməsi tələbələrdə qıcıq yaradır. Amma tələbə (məsələn gələcəkdə fizik, riyaziyyatçı, inşaatçı, geoloq və s. olacaq tələbə) bilsə ki, o çox yaxşı bir mütəxəssis olaraq, ona tapşırılan peşə tapşırığını yaxşı yerinə yetirə bilər, psixologiyanı dərindən bilərsə, onu əhatə edən münasibətlər sistemindən düzgün baş çıxara bilər. Başqa qeyri-ixtisas fənlərinin, məsələn fəlsəfənin, politologiyanın, sosiologiyanın və başqalarının tədrisi zamanı da bu meyar əsas götürüldükdə, tələbədə onları öyrənməyə motivasiya yaranır. O başa düşür ki, bu fənlərin mənimsənilməsi bir tərəfdən onun gördüyü peşə işlərinin səmərəsini, digər tərəfdən daha yüksək karyera qazanma şansını artırır. Hər bir müəllim bilməlidir ki, tələbənin hər hansı bir fənni dərindən öyrənməsinin, o fənnin maraqlı olmasının, tələbənin həmin fənni öyrənmə qabiliyyətinin olmasından daha çox onun həmin fənni öyrənməyə münasibətindən, marağından, motivasiyasından asılıdır.

**Problemin aktuallığı.** Müasir dövrdə ali məktəblərin qarşısına yüksək ixtisaslı kadr hazırlığı baxımından yeni-yeni tələblər qoyulur. Məqalədə toxunulan məsələlər bu istiqamətdə mühüm əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi.** Məqalədə motivlərin formalaşması və inkişafı tələbələrin təlim fəaliyyətinin yaxşılaşdırılmasının yolu kimi dəyərləndirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ali məktəb müəllimlərinin pedaqoji fəaliyyətinin təkmilləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**


1. Бобровицкая, С.В. Психология познания: за пределами непосредственной информации. / С.В. *Бобровицкая* - М.: Прогресс, -2003. - 412 с.
2. Печников, А.Н., Мухина Г.А. Культура мышления: Методологические проблемы научно-педагогической работы.-М.: Изд-во МГУ, 2006. — 115 с.
3. Rüstəmov, F. Ali məktəb pedaqogikası: Magistratura səviyyəsi üçün dərslik / F. Rüstəmov, T. Dadaşova. -Bakı: Nurlan, 2007. -568 s.
4. Вовчик-Блакитная, М.В. Мотивационный аспект развития учебной деятельности студентов // Воспитание, обучение, психическое развитие: Тезисы докладов к IV Всесоюзному съезду Общества психологов СССР. Ч. 2. -М., 1983. -с. 23-25
5. Рахматуллина, Ф.М. Мотивационная основа учебной деятельности и познавательной активности личности: Психологическая служба в вузе. — Казань, 1981. -с. 234
6. Реан, А. А. Психология педагогической деятельности. - Ижевск, 1994. -с.81.
7. Гебос, А.И. Когнитивно-личностные характеристики творческого мышления в структуре общей одаренности / Вопросы психологии. 2007, № 1, с.14-20.
8. Солоницын, В.А., Шабанов Г.А. Основы самостоятельной работы студентов негосударственных вузов. Учебно-методическое пособие / Под ред. И.Г. Безуглова. – М.: МОСУ, 1995. – 64с. – С.57-59.
9. Kazımov, N.M. Ali məktəb pedaqogikası / N.M. Kazımov. -Bakı: Nicat, -1999. -340 s.


**E-mail:** rahimamahmudova@bsu.edu.az
**Rəyçilər:** *ped.elm.dok.,prof.* **H.Ə. Əlizadə**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 21.08.2023